# *Şuşada həyata keçirilən geniş bərpa-quruculuq işləri*



***Prezident İlham Əliyev: "Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır".***

44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə Azərbaycanın Zəfər tarixini əbədiləşdirdi. Azərbaycan işğal altında olan torpaqları erməni təcavüzkarlarından təmizləyərək, yeni bir həyata qədəm qoydu. "Biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də, işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur". İşğaldan azad olunan ərazilərimiz sırasında Qafqazın mirvarisi, Qarabağın döyünən ürəyi olan Şuşa da 28 illik işğal tarixindən sonra öz sakinlərini qəbul edir. Artıq Şuşada yenidənqurma işlərinə start verilib. Vaxtilə ermənilərin məskən saldığı ərazilər öz sakinlərini ağuşuna alır və böyük "ümidlərlə" yaşadıqları bütün utopiyaları alt-üst olub. Onsuz da tarix boyu belə olub. Ermənilərin utopiyaları həmişə uğursuzluğa uğrayıb. Necə ki, Ermənistan hakimiyyəti Şuşa şəhərinin bərpasını həyata keçirmək üçün 2000-ci ildə tədbirlər planı hazırlamışdır və bu, el dilində desək, arzuları ürəklərində qaldı.

***"Ermənilər nə qədər çalişsalar da, yenə də Şuşani erməni şəhəri kimi təqdim edə bilmədilər".***

İrəvan şəhərində "Şuşi" Mədəniyyət Fondu və "Şuşi" nəşriyyat evini yaratmışdır. Fond yaradıldıqdan dərhal sonra özünün Şuşa şəhərini dünya ermənilərinin dini və mədəniyyət mərkəzləri kimi inkişaf etdirilməsi layihəsini irəli sürdü. Belə ki, bu layihə çərçivəsində təmir, bərpa və quruculuq işlərinin həyata keçirilməsi 5 mərhələdə həyata keçirilməsi nəzərdə tutulurdu. Yeni turist mehmanxanalarının tikintisi, Qala divarlarının, Xan sarayının, Xan qızının iqamətgahının, qədim hamamın bərpası, eyni zamanda, bu abidələrin bərpasından sonra içərisində və ətrafında bütün zəruri rahatlıqlarla təmin edilməsi və s. Hətta

O.Tarkanyan adına Mədəniyyət Mərkəzinin yaradılması da plana daxil idi. Yeni erməni ibtidai məktəbinin tikilməsi vacib hesab edilirdi. XIX əsrin əvvəllərində inşa edilmiş Şuşa real məktəbi təmir edilərək, onu Marinay adına gimnaziya adlandırmaq, Zaxaryan adına müasir xəstəxana binasını tikmək və s. planlaşdırılırdı. Bütün bunlar ermənlərin yalnız gələcək üçün olan "plan"ları idi ki, tarixi ədalət bərpa olundu və haqq yerini tutmuş oldu. Azərbaycan Prezidentinin çıxışlarının birində vurğuladığı kimi: "***Ermənilər nə qədər çalışsalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb".***

***"Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik".***

Ermənilərin özgə torpaqlarına göz tikmək, harınlıqla nəyisə əldə etmək ideyaları alt-üst edildi. Azərbaycanın haqlı mövqeyi, 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi, uğurlu diplomatiyası və müzəffər ordumuzun gücü ermənilərin kim olduqlarını sübut etdi. "Məzlum" erməni Azərbaycan ordusunun gücünü, xalq-iqtidar birliyini, ölkəmizin iqtisadi gücünü görmüş oldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi ***"44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik. Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür",*** - deyən Prezident bildirib ki, hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik: "Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik".

Şuşa şəhərinə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalın-madan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası

Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir.

İndi Şuşanın əvvəlki şöhrəti özünə qaytarılır, şəhər ənənəvi dolğun mədəni həyatına qovuşur. Şuşa işğaldan azad edildikdən dərhal sonra şəhərin bərpası istiqamətində işlərə başlanıldı. Görülən işlər sırasında infrastruktur layihələri xüsusi əhəmiyyət daşıyır. İlk olaraq "Zəfər yolu" inşa edildi, 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyası istifadəyə verildi, Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Şuşaya 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkildi, şəhərə suyun verilməsi və həyati əhəmiyyətli obyektlərin su təchizatı təmin edildi. Hazırda Şuşa şəhərinə gedən ikinci yolun - Əhmədbəyli-Füzuli-Şuşa yolunun inşası aparılır.

Şəhərdə infrastruktur layihələri ilə yanaşı tarix və mədəniyyət abidələrinin bərpası da həyata keçirilir. Bir sıra yeni binaların da tikintisinə başlanılıb. Mədəniyyət paytaxtımızda tikinti-quruculuq işləri dövlətimizin başçısının tapşırığına uyğun olaraq şəhərin tarixi memarlıq xüsusiyyətlərinə uyğun həyata keçirilir. Prezident İlham Əliyev bu haqda deyib: "Şuşanın tarixi simasını bərpa etməliyik. Hər hansı bir tarixi memarlıq ansamblına xələl gətirə biləcək başqa layihə orada icra edilməməlidir".

Bu, Azərbaycan həqiqətləridir. Qısa bir zamanda görülən işlər, reallaşan işlər torpağa məhəbbətdən qaynaqlanır. Ermənilər tərəfindən gülləbaran edilmiş Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri artıq öz isti nəfəsli torpağındadır. Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu. Bülbülün evinin açılışı oldu. Görülən işlərin davamı olaraq yeni yaşayış kompleksinin təməli də qoyulub. Artıq Şuşada "Xan qızı" bulağı bərpa olunub. Qısa vaxtda Heydər Əliyev Fondu tərəfindən dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində təmir-bərpa və yenidənqurma işləri görülüb. Şəhərdə dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstü qoyulub. Qala divarlarında təmir-bərpa işləri aparılıb. Üzeyir Hacıbəylinin ev-muzeyində aparılacaq işlər üzrə layihə hazırlanıb. Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa, Saatlı məscidlərində və Mehmandarovların malikanə kompleksində bərpa işləri aparılır.

Cənab Prezidentin vurğuladığı kimi, ***"Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik".***

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəliyinin binası əsaslı şəkildə təmir edilib. "Xarıbülbül" və "Qarabağ" otelləri yenidənqurmadan sonra istifadəyə verilib, modul tipli xəstəxana fəaliyyətə başlayıb. Hazırda Şuşada yaşayış kompleksinin, hotel və konfrans mərkəzinin, 960 şagirdlik məktəbin, 90 çarpayılıq xəstəxananın, yeni məscidin və beşulduzlu otelin inşası həyata keçirilir, mənzil-kommunal və təmir xidmətinin inzibati binası bərpa olunur.

Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada mədəni-kütləvi tədbirlərin keçirilməsi də bərpa edilib - Vaqif poeziya günləri, Xarıbülbül festivalı, Milli Musiqi Günü çərçivəsində Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti, VIII "Muğam" Televiziya Müsabiqəsinin finalı və qala-konserti və bir sıra digər mədəni-kütləvi tədbirlər keçirilib. Bütün bunlar onu göstərir ki, Şuşanın əvvəlki şöhrəti özünə qaytarılır, şəhər ənənəvi dolğun mədəni həyatına qovuşur.

Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2021-ci il 7 may tarixli "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Sərəncam imzalamışdır.

Qarabağın baş tacı Şuşanın qorunmasının, bərpasının, öyrənilməsinin, inkişafının və təbliğinin hüquqi və təşkilati əsaslarını müəyyən etmək üçün "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" 31 may 2021-ci il tarixli Azərbaycan Respublikasinin Qanunu qəbul edilmişdir.

Memarlıq və şəhərsalma sənətinin 270 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiram, diqqət və qayğının təzahürü kimi 2022-ci il martın 31-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin növbədənkənar iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir.

